# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA
# ELMİN İNKİŞAFI FONDU

**Azərbaycan Respublikasının Prezidenti yanında**
**Elmin İnkişafı Fondunun**
**Gənc alim və mütəxəssislərin 3-cü qrant müsabiqəsinin**
**(EİF/GAM-3-2014-6(21)) qalibi olmuş layihənin yerinə**
**yetirilməsi üzrə**

## YEKUN ELMİ-TEXNİKİ HESABAT

Layihənin adı: **Qeyri-neft ixracının təşviqində təsir edən faktorların modelləşdirilməsi, təklif və tövsiyələrin hazırlanması**
Layihə rəhbərinin soyadı, adı və atasının adı: **İsmayılova Aynurə Manaf qızı**
Qrantın məbləği: **15 000 manat**
Layihənin nömrəsi: **EİF/GAM-3-2014-6(21)-24/24/5-M-21**
Müqavilənin imzalanma tarixi: **23 dekabr 2015-ci il**
Qrant layihəsinin yerinə yetirilmə müddəti: **12 ay**
Layihənin icra müddəti (başlama və bitmə tarixi): **01 yanvar 2016-cı il – 01 yanvar 2017-ci il**
Diqqət! Bütün məlumatlar 12 ölçülü Arial şrifti ilə, 1 intervalla doldurulmalıdır
Diqqət! Uyğun məlumat olmadığı təqdirdə müvafiq bölmə boş buraxılır

Hesabatda aşağıdakı məsələlər işıqlandırılmalıdır:

| | |
|---|---|
| 1 | Layihənin həyata keçirilməsi üzrə yerinə yetirilmiş işlər, istifadə olunmuş üsul və yanaşmalar |
| | Nəticələrin analizi və ümumiləşdirilməsi, yekun hesabatın hazırlanması. |
| 2 | Layihənin həyata keçirilməsi üzrə planda nəzərdə tutulmuş işlərin yerinə yetirilmə dərəcəsi (faizlə qiymətləndirməli) |
| | İşin həyata keçirilməsi başa çatdırılmışdır, 100% |
| 3 | Hesabat dövründə alınmış **elmi nəticələr** (onların yenilik dərəcəsi, elmi və təcrübi əhəmiyyəti, nəticələrin istifadəsi və tətbiqi mümkün olan sahələr aydın şəkildə göstərilməlidir) |
| | *Müasir tədqiqatçı-iqtisadçıların demək olar ki, hamısının gəldikləri yekdil qənaət bundan ibarətdir ki, dünya iqtisadiyyatının inkişafında əhəmiyyətli rola və yerə malik olan ixracdır. Açıq iqtisadi siyasət tətbiq edən ölkələrin sosial-iqtisadi inkişafının davamlılığının təmin edilməsinin* |

*əsas istiqamətlərindən biri də məhz ixrac potensialının gücləndirilməsidir. Son 30 ildə dünyada mal və xidmətlərin ticarəti hər il üzrə orta hesabla 7 % artaraq, 18 milyard ABŞ dollarına çatmış, 2011-ci ildə isə bu rəqəm əlavə olaraq, 4 trilyon ABŞ dolları həcmində artmışdır. 1980-2011-ci illərdə isə inkişaf etməkdə olan iqtisadiyyatlar dünya ixracında öz paylarını 34 %-dən 47 %-dək, dünya idxalında isə 29 %-dən 42 %-ədək artırmağa müvəffəq olmuşlar.*

*Asiyanın dünya ticarətində yüksələn çəkisi, ticarətin əlavə dəyər ilə ölçülməsindən etibarən xidmətlərin artan rolu, dünya bazarlarında neftin qiymətlərinin kəskin ucuzlaşması, eləcə də dünyanın maliyyə bazarlarında qeyri-sabitlik, geosiyasi dəyişikliklər və risklər, dünya əhalisinin sayının artması və s. hadisələr qlobal iqtisadi mühitin dəyişməsinə səbəb olmaqla yanaşı, mövcud imkanların gözdən keçirilməsi, xüsusilə qeyri-resurs ixracın gücləndirilməsinə bir daha şərait yaratmışdır.*

1960-cı illərdən etibarən ünsiyyətdə əlyetərliliyin yüksəlməsi, nəqliyyat və logistikada texnoloji imkanların inkişafı ticarətin qloballaşma müddətinə təsir etmiş, sürətlənməsinə səbəb olmuşdur. Dünya bazarlarında inteqrasiya və qloballaşma proseslərinin dominant rol oynamağa keçidilə iqtisadi inkişafın mühüm amili kimi ixrac əhəmiyyətli rol oynamağa başlamışdır. Bu müddətdə, xüsusilə inkişaf etmiş ölkələr öz iqtisadiyyatlarını beynəlxalq rəqabətə açmışlar. Məhz inkişaf etmiş ölkələrin bu yanaşmasına istinad edilməsi isə bir-çox, xüsusilə Şərqi Asiyanın inkişaf etməkdə olan ölkələri üçün ixracatın artırılmasına və eləcə də, davamlı böyüməyə istinad edən uğurun, iqtisadi siyasətin həyata keçirilməsinə təkan olmuş, daha sonra isə Şərqi Asiya ölkələrində iqtisadi səmərəlilikdəki fərqli cəhətlər diqqətləri cəlb etmişdir.

İxtiyari bir ölkənin ixracatdakı səmərəliliyinin ilkin göstəricilərindən biri ixracın həcmidir. Dünya ölkələrinin rəqabət gücünü müəyyən edən və ona təsir edən amillər, həmin ölkələrə məxsus müəssisələrin ölkə daxili və xarici bazarlardakı səmərəliliyi, yaratdığı əlavə dəyər və əldə etdiyi rəqabət üstünlüyüdür. Beynəlxalq bazarlarda rəqabət gücü ilə müəyyən olunan ixrac həcminə çoxsaylı amillər təsir göstərir. Müxtəlif lüğətlərdə demək olar ki, eyni məzmunda təsrif olunan "amil" anlayışı səbəb, prosesin və yaxud hadisənin hərəkətverici qüvvəsidir.

Müxtəlif, iqtisadi göstəricilərdən asılı olaraq, formalaşan qeyri-neft ixracı və onun səmərəliliyinə təsir edən amillərin sayının çoxluğu bir tərəfdən onların müxtəlif təbiətli olması, digər tərəfdən onların təsirinə aşkar üstünlüyün verilə bilməməsi və qiymətləndirmə prosesində bütün bu amillərin hamısının təsir dərəcəsinin nəzərə alına bilməməsi seçilmiş amillərin təsirlərinin riyazi şəkildə ifadə olunması və qiymətləndirilməsi prosesində qərar qəbul edilməsini çətinləşdirir. Məhz bu səbəbdən qeyri-neft ixracının artırılmasına təsir edən amillərin düzgün qiymətləndirilməsi üçün qərar qəbul edilməsi prosesi ciddi iqtisadi-statistik tədqiqat obyektinə çevrilmişdir. İqtisadi-riyazi ədəbiyyatın təhlili və təcrübə göstərmişdir ki, təsir obyekti və təsiredici amillər, eyni zamanda təsiredici amillərin bir-biri arasında kəmiyyət asılılıqlarının statistik üsulların vasitəsilə təyin edilməsi mürəkkəb bir prosesdir.

İxracın həcminin, onun səmərəliliyinin artırılması dövlətin, ixracatçı şirkətlərin və elmi-iqtisadi cəmiyyətin birgə fəaliyyəti olmadan demək olar ki, mümkünsüzdür. Başqa sözlə desək, ixracın inkişafı üzrə təklif və tövsiyyələrin verilməsi mütləq mənada ixracın səmərəliliyinə təsir edən amillər ciddi tədqiq edilməli, tədqiqatın nəticələri təcrübədə idarəedici həllərin tətbiqində asanlıqla istifadə oluna bilməlidir. İxracatın səmərəliliyi məsələləri istər elmi (akademik), istərsə də sahibkarlıq sahəsində də maraq cəlb edən aktual mövzulardan biridir. Xarici bazarlarda rəqabətin artmasından irəli gələrək, dünya ticarət sistemində ixracatın əhəmiyyətinin getdikcə artması müəssisələrin xüsusiyyətləri, idarəolunması, srtrateji və ətraf mühit (ekoloji) amillərinin ixracın səmərəliliyinə təsirlərinin tədqiqinə son 40 ildə daha çox diqqət ayrılmışdır. Bu qədər uzun müddətdə tədqiq olunması eyni zamanda mövzunun aktuallığını əks etdirir. Elmi mənbələrdə ixracatın səmərəliliyinə həsr edilmiş işlərdə təsir edən amillərin sinfi təsnifatının verilməsinə müxtəlif yanaşmaların olduğu görülmüşdür. Məsələn, Aaby və Slaterinə görə ixracata təsir edən amillər texnoloji, bazar məlumatları, planlama, marketinq (bazar) strategiyaları, müəssisənin böyüklüyü və idarəedicilərin ixracat bacarıqları, qısa şəkildə desək, ixracatla məşğul olan

müəssisələrin rəqabətqabiliyyətliliyi, bazar yönümlülüyü, müəssisənin idarəolunması aiddir. Zou və Stana görə isə ixracatın səmərəliliyininə təsir edən amilləri *idarəedici* (müəssisənin xüsusiyyətləri (işləyənlərin sayı, ümumi gəlir), ixracatı idarəedənlərin xüsusiyyətləri, ixracat marketinq strategiyları (ixracatdakı təcrübə illərinin sayı, texnoloji çəkisi, beynəlxalq rəqabətqabiliyyətlilik)) və *ətraf mühit* kimi iki qrupda təsnif edilmişdir. Burada Louter və onunla birgə digər müəlliflər isə hesab etmişlər ki, ixracatın səmərəliliyinə təsir edən amilləri müəssisə, idarəedici və strateji kimi üç qrupa ayırmışlar. Donthu və Kimə isə ixracatın səmərəliliyinə təsir edən amilləri ənənəvi olaraq, daxili və xarici olaraq sinfi təsnifatını vermişdir. Belə ki, müəssisə daxili amillər, ixracatda marketinq strategiyaları, müəssisənin xüsusiyyətləri, yenə də idarəedicilərin davranışlarına (yanaşmalarına) istinad edən amillər qeyd edilmişdir. İxracatda marketinq strategiyaları, məhsul, qiymət, təşviq, paylanma və əlaqələr kimi dəyişənlər əsas götürülmüşdür. Beynəlxalq fəaliyyətlərdə idaredicilrin davranışı və yanaşmasına istinad edən amillər Çavuşgil və Zounun, eləcə də Valos və Bakerin işlərində rast gəlinmişdir. Müəssisədən kənar amillərə isə daxili və xarici ətraf mühit amilləri kimi ayrılmışdır. Burada daxili siyasi mühit, xarici siyasi ətraf mühit və xarici sosial-mədəni xüsusiyyətlər də daxildir.

*İxracın növləri və səmərəliliyi.* İxrac analyışı, ixracın əhəmiyyəti, onun növləri, ixrac bazarlarına giriş strategiyaları və ixracın səmərəliliyinə qısa nəzər yetirək. İxrac və ya sadə dildə desək "xaricə satış" bir malın mövcud qanunuyğunluğa müvafiq olaraq, birbaşa sahibi və yaxud vasitəşi tərəfindən ölkə sərhəddindən kənarda satılması və dəyərinin (gəlirin) ölkəyə gətirilməsidir. Mövzunun əvvəlində də qeyd etdiyimiz kimi nəinki inkişaf etməkdə olan ölkələrdə, eləcə də inkişaf etmiş ölkələrdə iqtisadi artımın alət və vasitələri geniş tədqiqi və diskussiya mövzusuna çevrilmişdir. Odur ki, bir çox ölkələrin xarici əlaqələrdən uzaqlaşaraq, daxildə sənayeləşməyə əsaslanan iqtisadi artıma üstünlük verməleri, 1960-cı illərdən etibarən bu şəkildə iqtisadi siyasətin ixracata mənfi təsir göstərməsilə bu yanaşmanın doğru olmaması qənaətinə gəlinmişdir. İxracata əsaslanan iqtisadi artım və yaxud xaricə açıq olmaqla artım formasında ifadə edilən sənayeləşməyə və inkişafa təsir haqqında nəzəri fikirlər klassik iqtisadçı David Riçardın müqayisəli üstünlüklər nəzəriyyəsindən meydana gəlmişdir. Adı çəkilən nəzəriyyəyə görə beynəlxalq ixtisaslaşma müqayisəli üstünlüklərin əsasıdır. İxtisaslaşma və məhdud resursların beynəlxalq əmək bölgüsündə səmərəli şəkildə paylanmasından faydalanaraq, ticarətdə iştirak edən ölkələrdə ixracat daha çox fayda gətirmiş, milli gəlirin artmasına gətirib çıxarmışdır.

İqtisadi ədəbiyyatlarda çox geniş yer verilən və tədqiqat mövzularından biri də "sürətli və davamlı iqtisadi inkişafın necə həyata keçirilməsi" mövzusudur. İqtisadi artımın təmin olunmasının daimi yollarından biri də ixracat kimi göstərilir [9], belə ki, nəzəri cəhətdən də ixrac iqtisadi artıma müsbət təsir etdiyi göstərilir. İxracın dəstəklənməsi, ixrac edilən məhsul istehsalının artırılması yolu ilə birbaşa iqtisadi artıma nail olunması, bununla yanaşı, ölkəyə daxil olan pul kütləsinin artması isə öldə daxilində mal və xidmət sektorlarının inkişafına gətirib çıxarır ki, bu isə ümumilikdə iqtisadi artımd öz müsbət töhvəsini vermiş olur. Beləliklə, ixracın iqtisadi artım üzərində təsirləri (i) ixracat xüsusilə xarici bazarlarda rəqabəti artırır, (ii) ixracın artması yeni texnologiyaların əldə edilməsinə və yayılmasına şərait yaradır, (iii) ixrac yeni imkanları meydana çıxararaq, rəqabətin (beynəlxalq mallara xarici tələbin artması, yeni investisiya imaknlarına şərait yaratması, sektor üzrə ixtisaslaşma, müqayisəli üstünlüklərdən faydalanma kimi) üstünlüklərindən istifadə edilməsinə imkan yaradır, (iv) daxili bazarı məhdud, dar olan iqtisadiyyatlar ancaq ixracat sayəsində istehsalla iqtisadi artıma nail olurlar, (v) ixracın artması pul kütləsinin daxil olmasının artırır. Sadalananlara misal kimi hazırda inkişaf etməkdə olan ölkələrin dünya ticarətindəki payı ixracatın iqtisadi inkişafda nə dərəcədə real gücə malik olduğunun əyani nümunəsidir.

İxracın növlərinə qısa nəzər yetirsək, burada onun (i) sərbəst ixracat, (ii) qeydiyyata alınmış ixracat və (iii) müəyyən xüsusiyyəti olan ixracat kimi müxtəlif növlərinin olduğunu görürük. İxrac bazarlarına giriş strategiyalarına gəldikdə isə burada (i) *dolayı* (vasitəçilər, yerli və xarici tacirlər, nümayəndəliklər, ixrac birlikləri və koorporativlər, müəssisənin istehsal etdiyi məhsulları ondan asılı olmadan xaricə satan şirkətlər, birləşmiş ixracın idarəolunduğu şirkətlər) və (ii) *birbaşa* ixrac

olmaqla iki əsas istiqamətin olduğunu görürük. Təcrübədə yeni fəaliyyətə başlayan şirkətlərin üstünlük verdikləri dolayı ixrac yolu ilə inkişaf etdərək, daha sonra birbaşa ixraca keçdikləri müşahidə olunur. Bununla belə birbaşa ixracda riskin çəkisinin birinciyə nisbətdə daha çox olduğu qeyd edilir. Birbaşa ixraca *ölkədaxili ixrac bölmələri, ölkə xarici satış büroları, ölkə xarici satış şirkətləri, xarici ölkələrdə anbar imkanı yaradan şirkətlər, agentlər və distributorlar, səyahət satıcıları, import edənlər və topdan satış təşkil edənlər, xarici bazarlarda pərakəndə satıcılar, e-ticarət* kimi doqquz alət daxildir.

*İxracın səmərəlilik anlayışı.* Ümumiyyətlə ixracın optimallaşdırılması məsələsinə baxılarkən, burada qiymətləndirmənin hansı şəkildə aparılmasına baxılmalıdır. Başqa sözlə desək, ixracın artıb-azalma səviyyəsini xarakerizə edən, dəqiq ölçülə bilən göstəricilər lazımdır. Makrosəviyyədə keçmiş Sovetlər Birliyində, eləcə də Rusiya Federasiyasında ənənəvi olaraq, mütləq və nisbi səmərəlilik göstəricilərindən istifadə edilmişdir. Burada *ixracın mütləq səmərəliliyi* ixracdan gələn gəlirlərin onun xərclərinə olan nisbətini, başqa sözlə desək *ixracın rentabelliyini* göstərir. *İxracın səmərəliliyinin nisbi* göstəricisi isə ixracın xarici bazarlarda məhsul satışı ilə müqayisədə nə dərəcədə sərfəli olmasını xarakterizə edir.

*İxracın səmərəliliyinə (artırılmasına) təsir edən amillərin sinfi təsnifatı.* İxracın səmərəliliyinə dair elmi mətbuatda əsasən xarici tədqiqatçıların işlərində rast gəlinmişdir, bu isə qənaətimizcə xarici ölkələrdə ixrac potensialının artırılması məsələlərinin Azərbaycanla müqayisədə çox illər əvvəldən başlamış olması, belə zərurətin onlar üçün qaçılmaz olmasından irəli gəlir. Hazırda yerli mütəxəssislərin tədqiqatlarında ixracın səmərəliliyinə təsir edən, onun həcminin artırılmasında birbaşa rol oynayan amillərin tədqiqinə kifayət qədər yer ayrılmamışdır. Odur ki, burada əsasən xarici mənbələrə istinad edilərək, təsir amilləri və onların sinfi təsnifatının verilməsi tədqiq edilmişdir. Müqayisə üçün qeyd edək ki, Ümumdünya Ticarət Təşkilatının (WTO) illik hesabatında xarici ticarətə təsir edən fundamental iqtisadi faktorların tədqiq edilmiş və onların (1) demoqrafik dəyişikliklər, (2) investisiya, (3) texnologiyalar, (4) enerji və digər təbii resurslar, (5) daşınma xərcləri və (6) institutlar aid edilmişdir.

Ümumilikdə iqtisadi-statistik qiymətləndirmədə ixracın səmərəliliyinə təsir edən makroiqtisadi göstəricilərə *(i) xarici sərmayə* (dolayı və birbaşa xarici sərmayə); *(ii) valyuta məzənnəsi* (real və nominal məzənnə); *(iii) faiz dərəcəsi* (real və nominal faiz dərəcəsi); *(iv) inflyasiya* və *(v) idxal* aid edilir. Bu zaman ixracın səmərəliliyinin makroiqtisadi dəyişənlərdə asılılığının qiymətləndirilməsində ixrac asılı olmayan, idxal, inflyasiya, valyuta məzənnəsi, faiz dərəcəsi və xarici sərmayə isə xarici asılı dəyişənlər kimi götürülərək, ekonometrik qiymətləndirilmə aparılır.

Qloballaşma anlayışı ilə çoxmillətli müəssisələr arasındakı sıx əlaqə vardır ki, bu da qloballaşmanın bu müəssisələr üzrəindəki yüksək təsiri ilə əlaqələndilir. Qloballaşma səbəbilə ixracatda iştirak edən müəssisələrin bazar mövqeylərinin müəyyən edilməsinə təsir edən amillər:

*(i) makro-iqtisadi* (ölkələr arasındakı əhəmiyyətli dərəcədə məhsuldarlıq fərqi, inkişaf etməkdə olan ölkələrdəki boşluqlar, texnologiyaların ötürülməsi, valyuta məzənnələrindəki kəskin dəyişikliklər, 2050-ci ilədək dünya əhalisinin artan sayının əsasən inkişaf etməkdə olan ölkələrin payına düşməsi kimi);

*(ii) siyasi* (ticarəti təşviq edən regional inteqrasiyanın artması, istehsal faktoru olan daxilolmaların liberallaşdırılması (investisiyanın azad tənzimlənməsi, xammaddə və insan kapitalı axınları), regional qruplaşmada xüsusilə əqli investisiyaların qorunması, xüsusilə inkişaf etməkdə olan ölkələrdə beynəlxalq ixracın təşviqi istiqamətində 3 beynəlxalq üst qurumun (Birləşmiş Millətlər Təşkilatı (UN), Beynəlxalq Maliyyə Fondu (IMF), Dünya Bankı (WB) təsirləri);

*(iii) texnoloji* (sürətlə düşməkdə davam edən əməliyyat, rabitə və nəqliyyat xərcləri, inkişaf etməkdə olan ölkələrdə iqtisadiyyatın texnoloji sıçrayışları, sürətli texnoloji transferlər - əqli sektorda sürətli böyümə, beynəlxalq bazarlarda satıla bilən yüksək risk daşıyıcısı texnologiyaların satışı məqsədilə texnoloji fəaliyyət sahələrindəki firmaların bir-biriilə əlaqəli işbirliyinin göbələk kimi çoxalan sayları);

*(iv)* və *təşkilati* (mümkün qaynaqların səmərəli idarəolunması, qeyri-aktivlərin strateji idarəolunmasından meydana çıxan dəyişikliklər, təşkilati idarəolunmaya gətirilən qlobal şəbəkələşmə) olmaqla dörd qrupa ayrılır.

*(v)* Qeyd etdiyimiz kimi ənənəvi iqtisadi tədqiqatlarda ixracın qiymətləndirilməsi üzrə vahid yanaşmanın, iqtisadi kriteriyanın təqdim edilməməsi səbəbiylə xarici mənbələr istinad edilir. *"İxracın səmərəliliyi"* ingilis dilli ədəbiyyatlardakı *"export performance"* sözündən qaynaqlanmış, rus dilli ədəbiyyatlarda isə eyni adlı termin *"результаты экспорта"* kimi istifadə edilir. Burada *"İxracın səmərəliliyi"* deyildikdə isə ölçülə bilən, keyfiyyət və kəmiyyət xüsusiyyətlərinin məcmusu başa düşülür.

İxracın səmərəlilik göstəricilərinin mübahisəsiz üstünlüyə malik olmasına baxmayaraq, onlara əhəmiyyətli dərəcədə xas olan çatışmamazlıqlar var ki, bu isə ixracın qiymətləndirilməsində praktiki çətinliklərin yaranmasına səbəb olmasıdır:

- ixracın səmərəlilik göstəricilərindən istifadə xarici bazara çıxma mərhələsini və onların fərqli məqsədlərini müəyyən etməyə imkan vermir;
- milli valyutanın kursu xarici valyutaya nisbətdə daima dəyişir və bu isə milli valyutanın real qiymətinin müəyyən edilməsində çətinlik yaradır. Valyutanın məzənnəsinin dəyişməsi isə alıcıların xarici valyutanın alınmasına münasibəti ilə deyil, daha çox digər faktorlarla əlaqələndirlir, məsələn siyasi faktorlardan asılıdır;
- ixracda iştirak edən müəssisələrin əksəriyyəti xarici bazarlara vasitəçilər vasitəsilə çıxırlar ki, bu zaman satışdan əldə edilən gəlirin əsas hissəsi xaricin payında qalır;
- bir çox müəssisələrdə hələ də mühasibat uçotunun aparılması köhnə, qarışıq üsullarla həyata keçirilir ki, bu isə ixrac əməliyyatlarının seçilməsi və hesablanmasında rentabelliyin itirilməsinə səbəb olur;
- ixracın səmərəliliyinin qiymətləndirilməsində ixracatçı-şirkətlər zəruri məlumatları təqdim etməlidirlər ki, bu isə kommersiya sirri kimi suallara dair olduğundan hazırda ölkədəki şirkətlərdən bu kimi məlumatların əldə edilməsi çox az ehtimallı haldır.

"İxracın səmərəliliyi"nin xarici tədqiqatlarda geniş yer ayrılmasına baxmayaraq, vahid yanaşma olmamışdır. Görülmüş işlərin ümumiləşməsinə istinad etsək, Katsikeas, Leonidou və Morganın işində 23-ü iqtisadi, 14-ü qeyri-iqtisadi və 5-i subyektiv olmaqla, ümumilikdə 42 göstərici müəyyən edilmişdir. Göstəricilərin sistemləşdirilməsində konseptual yanaşmanın müəyyən edilməsindəki çətinliyinə istinad edərək, aşağıdakıların nəzərə alınması mütləq hesab edilir:

- ixracın səmərəliliyinin göstəricilər sistemi yolu ilə qiymətləndirilməsinin məqsədə müvafiqdir;
- mütləq (ixracın həcmi) və nisbi göstəricilərdən (ixrac kvotası və s.) istifadə edilməsi müxtəlif nəticələrə gətirib çıxarır;
- ixracın səmərəliliyinin qiymətləndirilməsi üçün istər obyektiv, istərsə də subyektiv məlumatlardan birgə istifadə edilməsi məqsədə müvafiqdir;
- müəssisə ilə əlaqədar olaraq, siyasi, sosial-mədəni kimi xarici amillər diqqətlə tədqiq olunmalıdır;
- subyektiv dəyişənlərdən istifadə etdikdə, rəqiblərlə münasibət nəzərə alınmaqla, qiymətləndirmə zamanı "yaxşı" və "pis" kimi ümumi terminlərdən istifadə etməməli.

İxracın qiymətləndirilməsinin empirik tədqiqatları zamanı hazırda ölkəmizdəki cari şəraitdə demək olar ki, əksər müəssisələr gəlirlərini bir sirr kimi saxlamağa meyillidirlər ki, bu isə fəaliyyətin (rentabellik, gəlirlilik və s.) maliyyə çəkili göstəricilərinin əldə edilməsi və tədqiqatların aparılması zamanı çətinliyin yaranmasına şərait yaradır.

Amillər onların mənşəyinə, təsərrüfat fəaliyyətinə təsirinə görə *daxili və xarici amillərə* ayrılır. Bu yanaşmaya demək olar ki, əksər tədqiqatçıların işlərində rast gəlinir. Məzmun etibarı ilə "amil" anlayışı səbəb, prosesin və yaxud hadisənin hərəkətverici qüvvəsidir, bununla belə təsir amillərini daxili və xarici kimi siniflendirilməsi zamanı müəlliflər onların üzərində nəzərət xüsusiyyətinə görə

ayrılmasına cəhd edirlər. Bu zaman idarəolunma xüsusiyyətinə əsasən heç də birqiymətli olaraq, daxili amillər idarəolunan, xarici amillər isə idarəolunmayan hesab edilmir [16]. Əgər müəyyən bir sahibkarlıq sektoru xüsusilə monopolya və yaxud yüksək imkanlı şəxslərin təsir gücü altındadırsa, bu zaman məhz həmin sektor daxili bazara, eləcə də xarici bazara təsir etmə gücünə malik olur ki, bu zaman çıxış məhdudiyyətləri kimi xarici amillər idarəoluna bilən olurlar. Nəzarət oluna bilən amillərə o amillər daxil edilir ki, müəssisə özü ona təsir etmə, arzu olunan istiqamətdə idarəetmə gücünə malik olsun. Nəzarət oluna bilməyən amillər öz daxilində dövlət tərəfindən nəzarət oluna bilən və nəzarət oluna bilməyən amillərə ayrılır. Belə ki, məhz dövlət xarici bazarlara giriş istiqamətində tarif və qeyri-tarif məhdudiyyətlərinin tənzimlənməsi yolu ilə ixracın səmərəliliyinin artırılmasında təsir gücünə sahibdir. Bu sıraya daxil edilən amilləri sadalayarkən, həmçinin sahə üzrə texniki tərəqqinin ümumdünya meyllərini, iqlim və coğrafi amillər nəzərə alınmalıdır. Odur ki, göründüyü kimi, amillərin idarəoluna bilən və bilməyən kimi iki qrupa ayrılması da nisbi xarakter daşıyır.

Xarici tədqiqatçılar isə ixracın səmərəliliyinin daxili amillərinə (i) ixracın marketinq strategiyası, (ii) menecmentin (idarəetmənin) dəstəklənməsi, (iii) menecmentin (idarəetmənin) xarakteristikası, (iv) müəssisənin xarakteristikası və yetərliliyi kimi amillər daxil edilir ki, bunlardan isə ixracın səmərəliliyinin artırılmasına təcrübədə ən çox təsir edən amilin məhz ixracın marketinq strategiyası olduğu qeyd edilir. İxracın səmərəliliyinin xarici amillərinə gəldikdə isə xarici tədqiqatçılar onları (i) sahənin xarakteristikası, (ii) daxili bazarın xarakteristikası və (iii) xarici bazarın xarakteristikası kimi üç qrupa ayırırlar. Bundan əlavə daha geniş mənada baxdıqda yaranmasına əsasən bu qrupa daxil edilən amillər iqtisadi, siyasi-hüquqi, sosial-mədəni, texniki, təbii-iqlim kimi amillərə ayrılır.

Vaxtın təsirinə görə amillər *(i) daimi* və *(ii) müvəqqəti* olmaqla iki qrupa ayrılır. Birinciyə məsələ, coğrafi yerləşmə və iqlim şəraiti, ikinciyə isə xarici bazarlara nüfuz strategiyası aid edilir. Təsir imkanına görə amillər *(i) qlobal* və *(ii) yerli (lokal)* kimi iki qrupda təmsil olunurlar. Yerli amillərə məsələn, yüksək səviyyədə təmsil olunan idarəedicilərin peşəkarlıq səviyyəsi, istehsalın həcmi, elmi-tədqiqatlara ayrılan xərclər və s. kimi amillər daxil edilir. Bununla yanaşı amillər müəyyən göstəricilərə təsir gücünə görə ümumi, eyni zamanda verilmiş hər hansı bir göstəriciyə təsirinə görə isə xüsusi ola bilərlər. Qlobal amillərə gəldikdə isə milli valyutanın məzənnəsi və yaxud xarici bazarda rəqabətqabiliyyətlilik səviyyəsi geniş diapazonda böyük təsir gücünə malikdir. Belə ki, yerli amillərdən, məsələn müəssisənin xarici iqtisadi fəaliyyətinin təşkili isə çox məhdud diapazonda yüksək təsir gücünə malikdir.

Əlverişlilik baxımından isə amillərin ixraca təsir etməsinə görə (i) əlverişli və (ii) qeyri-əlverişli kimi iki qrupa ayrılır. Əlverişli bir-çox amillər intiusiya yolu ilə müəyyən edilir. Bu zaman ixracın səmərəliliyi baxımında onları sinifləndirsək, bu kimi xüsusiyyətlərlə qarşılaşırıq: təsir sahəsi, amillər üzərində nəzarət dərəcəsi, amilin təsir gücü, amilin diskretliliyi, amilin təsir müddəti, amilin təsir maştabı və təsirin istiqaməti. İxracın səmərəliliyinə təsir amilləri içərisində isə onun artırılmasına təsir edənlərin seçilməsi lazımdır. Medvedev bu amilləri səmərəliliyin artırılması istiqamətində üç qrupa ayrılmasını təklif etmişdir: müəssisənin və istehsalın texniki xarakteristikası; işin metodikası və texnologiyası; işçi kollektivi və rəhbərliyi əhatə edən psixoloji aspektlər. Müəllifin yanaşmasına əsasən bu amillərdən birincidən başlayaraq, üçüncüyə doğru gedişdə tələb olunan vaxt çoxalır, xərclər isə azalır. Hadisəyə və yaxud göstəriciyə təsir imkanlarına görə amilləri birinci, ikinci, və s. ayırırlar: ***daxili*** - *İxrac marketinq strategiyası* (Ümumi ixrac strategiyası; İxracın planlaşdırılması, ixracın təşkili; Marketinq tədqiqatlarının tətbiqi; Məhsulun uyğunlaşması; Qiymətin uyğunlaşması; Yayım kanalları və onların uyğunlaşması; Məhsulun təşviq üsullarının uyğunlaşması); *Müəssisənin xarakteristikası və səlahiyyəti* (Müəssisənin ölçüsü (böyüklüyü); Müəssisənin böyüməsi; Maliyyə vəziyyəti; Texnologiyalar; Xarici bazarlarda yerləşməsi (bazar payı, xarici bazarda iş təcrübəsi)); *İdarəetmənin xüsusiyyəti* (Yüksək-səviyyəli menecerlərin ixtisaslaşması və bacarıqları; Xarici dil bilikləri; Menecerlərin xarici bazarlarla iş təcrübəsi; İxtisasartırma və tədris seminarlarında iştirak); *İxracın idarəolunması*

*üçün dəstək (*Menecmentin baxışı və gələcək vizyonu*;* İxracın fəal şəkildə motivasiyası (təşviqi)*;* İxracda maraqlı olmaq) və ***xarici*** - *Sahənin xüsusiyyəti (*Sahənin qeyri-dayanıqlılıq səviyyəsi*;* Sahədə texnoloji inkişafın intensivliyi); *Xarici bazarın xüsusiyyəti (*İxrac bazarlarının cəlbediciliyi; İxrac məhdudiyyətləri; İxrac bazarlarında rəqabətqabiliyyətliliyin səviyyəsi); *Daxili bazarın xüsusiyyəti (*Daxili bazarın cəlbediciliyi); *İqtisadi (*Regionada investisiya və innovasiya mühiti; Məsləhət və marketinq şirkətlərinin inkişaf sistemi; Müəssisələrlə elmi-tədqiqatların qarşılıqlı işbirliyi); *Siyasi-hüquqi (*Əməkdaşlığa dair beynəlxalq müqavilələrin olması; İdxal edən ölkədə proteksionist tədbirlərin olması (hətta gücləndirilməsi); Xarici iqtisadi fəaliyyətin hüquqi-normativ tənzimlənməsi (ixrac kvotaları, dotasiya və güzəştlər sistemi)); *Sosial-mədəni (*Regionda əhalinin yaş həddi və ixtisaslaşma səviyyəsi*;* Xarici dil biliyinin səviyyəsi*;* İnformasiya texnologiyalarından istifadə səviyyəsi*;* İşçi heyətin mobilliyi (çevikliyi)); *Texniki (*Regionun bazar infrastrukturunun inkişafı; Regionun telefonlaşması və rabitənin inkişafı (o cümlədən, internetə çıxış imkanları); Elmi-tədqiqat qurumlarının fəaliyyəti); *Coğrafi-iqlim (*Coğrafi yerləşmə*;* Təbii resurslarla təmin olunma*;* İqlim şəraiti) kimi iki qrupa ayrılmışdır.

***Yekun.*** Keçid dövrünü başa çatdırmış Azərbaycanın qarşısında yeni çağırışlar, strateji hədəflər və zəruri vəzifələr durur. Sürətli qloballaşma, beynəlxalq iqtisadi inteqrasiya prosesləri, qlobal meyllərin dəyişkənliyi fonunda beynəlxalq bazarda ixtisaslaşma güclənir, innovasiyalara söykənən və yüksək əlavə dəyər yaradan elm tutumlu iqtisadiyyat modelinə üstünlük verilir. Bu isə qlobal və regional səviyyədə rəqabətin kəskin artmasına səbəb olur.

Göründüyü kimi qeyri-neft ixracın artırılmasına (beynəlxlaq, regional, milli, makro və mikro, sosial-mədəni, siyasi-iqtisadi və s. kimi) çoxsaylı amillər təsir edir. Amillər çoxluğunun geniş olması ixrac potensialının artırılması üçün qərar qəbul etmə prosesini çətinləşdirir. Bu baxımdan, amillər çoxluğunun müəyyənləşdirilməsi və onların üstünlük dərəcələrinin qiymətləndirilməsi, nəticədə qərar qəbul etmə mexanizmi üzrə vacib olan məhdud sayda amillərin seçilməsi mühüm əhəmiyyətə malikdir. Bununla yanaşı, ixtiyari amillər sinfinin ayrı-ayrılıqda tədqiqi ciddi-iqtisadi əsaslandırılmalı, dərinləşdirilmiş şəkildə tədqiq edilməldir ki, bu isə öz növbəsində ölkənin ixrac siyasətində tutduğu mövqeyindən, hansı səviyyəyə, nə qədər müddətdə nail olmağı hədəf seçməsi və bu həfədə nail olunmaqda sahibkarlığın üzərinə düşən vəzifənin müəyyən edilməsində birbaşa asılıdır.

***Nəticə.*** İxracın artırılmasına təsir edən amillər, onların müxtəlifliyi səbəbindən mürəkkəb bir sistem təşkil edir. Burada amillərin özlərinin müxtəlifliyi, eləcə də təsir dərəcələrinin subyektiv və obyektiv səbəblərə görə müxtəlifliyi, onların təsir dərcələrinə aşkar üstünlüyün verilə bilməməsi qeyri-səlis şəraitin yaranmasına gətirib çıxarır. Belə bir şəraitdə amillərin təsir dərəcələrinin qiymətləndirilməsi çətin bir prosesə çevrilir. Məhz bu səbəbə görə tədqiqat obeykti kimi təsir edən amillərin ixrac marketinq strategiyası, müəssisənin xarakteristikası və səlahiyyəti, idarəetmənin xüsusiyyəti, ixracın idarəolunması üçün dəstək, sahənin xüsusiyyəti, xarici bazarın xüsusiyyəti, daxili bazarın xüsusiyyəti, iqtisadi, siyasi-hüquqi, sosial-mədəni, texniki, coğrafi-iqlim üzrə sinfi təsnifatlara ayrılması məsələnin həllini asanlaşdırır. Təsir edən amillərin üstünlük dərəcələrinin qiymətləndirilməsi isə mütəxəssis rəylərinin nəzərə alınması zərurəti yaratmışdır.

Azərbaycanda bu sahədə aparılan tədqiqatlarda qeyd edilən analitik üsulların tətbiqi ölkənin ixrac imkanlarının genişləndirilməsi, beynəlxalq rəqabətqabiliyyətliyinin artırılmasına xidmət edəcək tədqiqatların aparılması və yeni yanaşmaların verilməsinə xüsusilə ehtiyac duyulur. Bu istiqamətdə ətraflı tədqiqatların aparılması ən böyük zərurətlərdən biridir. Heç şübhəsiz işin əsas praktiki tərəfi məhz kiçik və orta sahibkarların üzərinə düşəcəkdir, belə ki, onların xüsusilə innovativ potensiala malik olanları iqtisadi inkişafda aparıcı rol oynaya bilərlər.

